# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 8.1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Dövlət orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və digər büdcə təşkilatları (bundan sonra – dövlət qurumları) məsul olduqları informasiya məkanlarında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması məqsədilə 6 ay müddətində informasiya təhlükəsizliyi riskləri reyestrinin (bundan sonra – risklər reyestri) bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş “İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası”nın (bundan sonra - Qayda) tələblərinə uyğun formalaşdırılmasını təmin etsinlər.

3. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.1.1-ci yarımbəndinə əsasən hazırlanmış “İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin kateqoriyalar üzrə təsnifatlaşdırılmış toplusu”nun daxil edilməsi və daim yenilənməsi məqsədilə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin internet informasiya ehtiyatında “Təhdidlər və həllər” kataloqu yaradılsın.

4. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

4.1. bu Qərarın 3-cü hissəsində nəzərdə tutulmuş “Təhdidlər və həllər” kataloqunun mütəmadi yenilənməsini təmin etsin;

4.2. dövlət qurumlarında risklər reyestri formalaşdırıldıqdan sonra onların Qaydanın tələblərinə uyğunluğununun qiymətləndirilməsini aparsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 25 ” “ dekabr ” 2025-ci il

№ 411